# Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı"dır

## "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən tədbirlər keçirilir

***Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, dəstəklənməsi, xalq yaradıcılığının təbliği və təşviqi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən 2010-cu il üçün Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilmişdir.***

Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata əsasən, hazırlanmış illik tədbirlər planına uyğun olaraq Təşkilat Komitəsi yaradılmış, loqotiplər, rəmzi bayraqlar, əyani vəsaitlər hazırlanaraq şəhərin küçə və meydanlarında nümayiş etdirilir. Onun tarixi, mədəniyyəti belə bir tədbirlərin keçirilməsinə imkan verir. Qədim mədəniyyət mərkəzlərindən biri, zəngin xalq tətbiqi sənət ənənələrinə malik olan Şəki şəhəri nisbətən ucqar bir guşədə yerləşməsinə baxmayaraq, onun iqtisadi əlaqələr baxımından əlverişli coğrafi mövqeyi sənətkarların sayına görə, bu diyarı Azərbaycan şəhərlərinin ön cərgəsinə çıxarmışdır. Belə ki, 1861-ci ildə Şəkidə 1735 nəfər sənətkar yaşayırdı. Şəki şəhərində yaranan xalq tətbiqi sənəti sahələrinin, demək olar ki, hamısı bugünədək yaşadılmaqdadır. Dəmirçilik, silahsızlıq, nalbəndlik, misgərlik, qalayçılıq, zərgərlik, gümüşbəndlik, dulusçuluq, dabbaqlıq, papaqçılıq, kürkçülük, başmaqçılıq, dərzilik, sərraclıq, şalbaflıq, dülgərlik, xarratlıq, təkəlduzçuluq, kəlağayıçılıq, səhəngçilik və onlarla başqa qədim istehsal sahəsi Şəki sənətkarlıq məktəbinin başlıca sütunlarını təşkil edir.

Şəki sənətkarlarının sayı haqqında ilk informasiyaya XIX əsrin başlanğıcında çar məmurlarının tərtib etdikləri statistik məlumatlarda rast gəlinir. 1848-ci ilə aid sənədlərdən məlum olur ki, o zaman əhalinin təkcə geyim və bəzək ehtiyaclarını ödəmək üçün şəhərdə 235 papaqçı, 173 dabbaq, 147 başmaqçı, 154 dərzi, 82 şəridçi, 41 gümüşbənd çalışmışdır. Onlar təkcə Şəki əhalisinin deyil, habelə, qonşu əyalətlərdən gəlmiş müştərilərin də tələbatını ödəyirdilər. Şəkinin xalq sənətkarları öz ata-babalarından miras qalmış qədim sənət növlərini bu gün də yaşadırlar. Hazırda Şəkidə xalq tətbiqi sənətinin 18 növü üzrə 200 nəfərdən çox sənətkar məşğul olur. Onların bir çoxu artıq beynəlxalq səviyyədə tanınan və qiymətləndirilən sənətkarlardır. Müxtəlif sənət növləri üzrə keçirilmiş respublika və beynəlxalq səviyyəli sərgi, yarmarka və festivallarda Şəkinin xalq sənətkarlarının əsərləri yüksək dərəcəli diplomlara, qızıl medala layiq görülmüşdür. 2010-cu ildə Bakı şəhərində keçirilmiş Novruz şənliklərində Şəki xalq sənətkarlarının əl işləri böyük uğurla nümayiş etdirilmişdir. Azərbaycanın əməkdar mədəniyyət işçiləri - təkəlduz ustası Möhtərəm Ağahüseynzadə, şəbəkə ustası Əşrəf Rəsulov, məşhur dulusçu Şöyüb Məmmədov və başqaları təkcə respublikamızda deyil, xarici ölkələrdə də tanınırlar.



Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edildiyindən şəhərdə təntənəli açılış mərasimi təşkil olunmuşdur. Mərasimdə mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva, muzey işi sektorunun müdiri Azadə Hüseynova və qeyri-maddi mədəni irs sektorunun müdiri Yaşar Hüseynli iştirak etmişdir.

Daha sonra "Sənətkarlar evi"ndə "Şəki Azərbaycanın Sənətkarlıq Paytaxtıdır" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Qeyd edək ki, Şəki şəhərində TÜRKSOY təşkilatının "Türkdilli xalqların qeyri-maddi mədəni irsinin konvensiyalaşdırılması, inventarlaşdırılması və proqramlaşdırılması" mövzusunda III Beynəlxalq Seminarı keçirilmişdir. Seminarda Türkiyəni, Qazaxıstanı, Tatarıstanı, Şimali Kipri təmsil edən nümayəndə heyətləri iştirak etmişlər. Qonaqlar səfər proqramı çərçivəsində Xan Sarayında, tarix-diyarşünaslıq muzeyində və "Sənətkarlar evi"ndə olmuş, şəkili xalq sənətkarlarının əl işlərindən ibarət sərgiyə tamaşa etmişlər.

Seminar çərçivəsində qeyri-maddi mədəni irs sektorunun müdiri Y.Hüseynli Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən 2010-cu il üçün Şəki şəhərinin "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilməsi ilə əlaqədar hazırlanmış xatirə kubokunu və fəxri diplomu nazirlik adından Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Murad Cabbarlıya təqdim etmişdir.

Almaniyanın aparıcı KİV nümayəndələri ölkəmizdə təşkil olunmuş press-tur çərçivəsində Gəncə və Şəki şəhərləri ilə tanış olmuşlar. Bundan əlavə, "Exo Planeta" jurnalının əməkdaşları Azərbaycanın mədəniyyəti, incəsənəti, adət-ənənələri və turizmi ilə bağlı silsilə məqalələrin hazırlanması ilə əlaqədar Şəki şəhərinə səfər etmişdilər. Şəki şəhərinin davamlı inkişafı üçün mədəni ehtiyatların səfərbər olunması üzrə YUNESKO-nun sektorlararası layihəsinin həyata keçirilməsi məqsədilə fransalı ekspert Patrisio Ceretikin rəhbərliyi ilə ilkin faktaraşdırıcı missiya Şəkiyə səfər edərək, şəhərin real potensialı, imkanları və mədəniyyət müəssisələrinin hazırkı vəziyyəti ilə tanış olmuşlar.

Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilməsi ilə əlaqədar illik tədbirlər planına uyğun olaraq il ərzində silsilə tədbirlərin təşkili davam etdiriləcəkdir.

## Akademik Milli Dram Teatrında tamamlanma işləri gedir

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında aparılan əsaslı təmir işləri başa çatıb. Hazırda teatrın fasadında tamamlanma işləri gedir. Teatrın daxilində isə artıq müasir texniki avadanlıqların, işıq sisteminin qurulması prosesi aparılır. Təxminən 10 gündən sonra artıq teatrda yerləşdirilmə və kollektivin təmir olunmuş binaya köçməsi prosesinə başlanılacaq. Kollektiv tam yerləşdikdən sonra tamaşaçı zövqünü oxşayacaq tamaşalar hazırlanacaq. Ancaq teatrın açılışı bu il üçün nəzərdə tutulmayıb. Teatr yeni formada tamaşaçıların üzünə gələn ilin mart-aprel aylarında açılacaq.

## "Cavad xan" Macarıstanda nümayiş etdiriləcək

Dövlət sifarişi ilə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Dövlət Kinostudiyasında istehsal olunan "Cavad xan" filmi oktyabrın 5-də Macarıstanda nümayiş etdiriləcək. Mədəniyyət və Turizm Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən, filmin nümayişi və reklamı ilə məşğul olan "Ulusfilm" prodüser mərkəzinin direktoru Gəray Əlibəyov bildirib ki, nümayiş Azərbaycanın Macarıstandakı səfirliyi, Mədəniyyət və Turizm Nazirliyi və "Ulusfilm" prodüser mərkəzi tərəfindən təşkil olunub. Film Budapeştin mərkəzi kinoteatrında göstəriləcək. Macarıstana Gəray Əlibəyovla yanaşı, filmin ssenari müəllifi Sabir Rüstəmxanlı və Cavad xan obrazının ifaçısı xalq artisti, Nurəddin Mehdixanlı da gedəcək. Oktyabrın 4-dən 8-ə kimi baş tutacaq səfər zamanı filmlə bağlı müzakirələr də aparılacaq.

## "Növbəti" tamaşası oynanılacaq

Azərbaycan Teatr Xadimləri İttifaqı yeni mövsümün açılışına hazırlaşır. Oktyabrın 16-dan 23-dək teatrsevərlər teatrın səhnəsində "Növbəti" tamaşasını görə biləcəklər. Səhnə əsərində baş rolları Rafiq Əliyev və Murad Yegizarov ifa edirlər. Tamaşanın quruluşçu rejissoru Ələkbər Tağızadə, quruluşçu rəssamı Nazim Bəykişiyevdir. Oktyabrın 29-da isə "Kaktus gülü" tamaşası təqdim olunacaq.

Qeyd edək ki, son iki il ərzində Azərbaycan Teatr Xadimləri İttifaqının tamaşa zalında çoxlu tədbirlər keçirilib. Burada səhnəyə qoyulan yeni tamaşalar, o cümlədən, V.Şekspirin "Afinalı Timon" əsəri böyük maraqla qarşılanıb.

## Azərbaycan beynəlxalq turizm sərgilərində iştirak edib

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Fransanın Paris şəhərində keçirilən "Top Resa" və Yaponiyanın Tokio şəhərində keçirilən "JATA" Beynəlxalq Turizm Sərgilərində iştirak edib. Sərgilərdə nazirliyin, "Cəngi" Estrada Folklor Ansamblının, İmprotex Travel, AL Travel, GEO Travel, ENC Tour, Bakı Tur, Didare Melal, Millennium Touris and Congress, Gilan turizm turizm şirkətlərinin, Azərbaycan Turizm Assosiasiyasının nümayəndələri ölkəmizi təmsil ediblər.

Sərgilərdə Azərbaycanın turizm potensialını iştirakçılar və ziyarətçilər arasında təbliğ etmək məqsədi ilə Paris və Tokio şəhərlərinə fransız, yapon və ingilis dillərində reklam çap məhsulları, təbliğ vasitələri aparılmışdır. Hər iki sərgidə milli üslubda hazırlanmış lövhələr quraşdırılmışdır.

## İtaliyalı parlamentarilər İçərişəhərdə olublar

İtaliya Senatının İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri xanım Rossana Boldinin başçılıq etdiyi nümayəndə heyəti bu gün İçərişəhərdə olub. Gəzinti zamanı qonaqlara "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan son təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib. Bir neçə min illik tarixə malik, ölkəmizin ən möhtəşəm abidələrindən olan, Bakının rəmzi Qız Qalasının xüsusiyyətləri barədə zəngin məlumat qonaqların diqqətinə çatdırılıb. İtaliyalı parlamentarilərə Qoşa Qala qapıları, həmçinin, Qoşa Qala qapıları meydanı və qala divarlarının tarixi barədə geniş məlumat verilib.

Hazırladı: ZÜMRÜD